**Etibar QULİYEV**
Hərbi İdarəetmə İnstitutu, e.o.polkovnik, Bakı, Azərbaycan

**Oruc HÜSEYNOV**
[1]Hərbi İdarəetmə İnstitutunun magistrantı, e.o.p-k.l-t, Bakı, Azərbaycan
[2]Heydər Əliyev adına Hərbi İnstitutunda baş müəllim, Bakı, Azərbaycan
E-mail: huseynovoruc2909@gmail.com

# LİDERLİK VƏ STRESS ANLAYIŞININ NƏZƏRİ ƏSASLARI

**Xülasə**

Müasir idarəetmə mühitində liderlik və stress anlayışları bir-biri ilə sıx əlaqəli olub təşkilatların effektiv fəaliyyəti baxımından mühüm əhəmiyyət daşıyır. Məqalədə liderlik anlayışının mahiyyəti, onun əsas xüsusiyyətləri və müxtəlif liderlik nəzəriyyələri elmi baxımdan təhlil edilmişdir. İdarəetmə proseslərinin mürəkkəbləşməsi, qlobal dəyişikliklər və yüksək psixoloji gərginlik şəraiti liderlik və stress anlayışlarının elmi baxımdan öyrənilməsini aktuallaşdırır. Xüsusilə hərbi idarəetmə mühitində rəhbərlərin düzgün qərar qəbul etməsi, kollektivin idarə olunması və psixoloji sabitliyin qorunması effektiv liderlik bacarıqlarından birbaşa asılıdır. Tədqiqat işində analitik və müqayisəli elmi tədqiqat metodları birgə istifadə edilərək liderlik davranışları və stress prosesləri daha sistemli və elmi əsaslarla izah olunur. Hər iki metod nəzəri anlayışların dərin təhlilinə və müxtəlif yanaşmaların qarşılaşdırılmasına imkan verir. Aparılan tədqiqatın nəzəri əhəmiyyəti liderlik və stress anlayışlarının elmi mahiyyətinin sistemli şəkildə izah edilməsində, onların qarşılıqlı əlaqəsinin müasir idarəetmə nəzəriyyələri əsasında ümumiləşdiril-məsində ifadə olunur. Praktik əhəmiyyəti isə liderlik bacarıqlarının inkişaf etdirilməsi, stressin effektiv idarə olunması və kollektivdə sağlam psixoloji mühitin formalaşdırılması istiqamətində tətbiqi tövsiyələrin təqdim edilməsindən ibarətdir. Nəticə etibarilə, hərbi mühitdə effektiv liderlik yalnız komandanın idarə olunmasını deyil, həm də stress faktorlarının düzgün qiymətləndirilməsi və idarə edilməsini tələb edir. Bu baxımdan, liderlərin psixoloji biliklərə malik olması, stressin təsirlərini dərk etməsi və komanda üzvlərinin emosional vəziyyətini nəzərə alması ümumi fəaliyyətin optimallaşdırılmasına şərait yaradır.

**Açar sözlər:** hərbi liderlik, komanda idarəetməsi, stress, qərarvermə prosesi.

**UOT:** 355.1:159.9
**JEL:** M12
**DOI:** https://doi.org/10.54414/RTBG4417

## Giriş

Dünya tarixi araşdırıldıqda insanın birlik halında yaşadığını və bu birlikləri istiqamətləndirən və ona təsir edən şəxslərin olduğunu görərik. Yəni sosioloji tərəfdən hadisəyə baxdığı-mızda cəmiyyətlərin, idarə edənlər və idarə olunanlar olmaq üzrə iki qrupa ayrıldığını görə bilərik. İdarəçilik və liderlik mövzusunun köhnə olmasına baxmayaraq bu mövzunun araşdırılması ancaq bu əsrdə reallaşmışdır və mövzuyla əlaqədar işlər hələ də davam etməkdədir. Liderlik anlayışı nəzəri baxımdan müxtəlif yanaşmalarla izah olunur və bu yanaşmalar orduda idarəetmə prosesinin effektivliyinə birbaşa təsir göstərir. Klassik liderlik nəzəriyyələri liderin şəxsi keyfiyyətlərini ön plana çəkdiyi halda, müasir nəzəriyyələr situativ amilləri, kollektiv münasibətləri və emosional zəkanı daha çox vurğulayır. Xüsusilə hərbi mühitdə liderin davranış tərzi, ünsiyyət bacarığı və qərarvermə üsulu stressin səviyyəsinə və onun nəticələrinə ciddi təsir göstərir.

Müasir dövrdə ordu yalnız fiziki gücə və texniki imkanlara əsaslanan bir qurum deyil,

eyni zamanda yüksək psixoloji dayanıqlıq, effektiv idarəetmə və düzgün qərarvermə bacarığı tələb edən mürəkkəb sistemdir. Bu sistemin əsas dayaqlarından biri liderlik anlayışı, digəri isə stress amilidir. Orduda xidmət edən şəxslər gündəlik fəaliyyətlərində yüksək risk, qeyri-müəyyənlik, məsuliyyət və təhlükə ilə üz-üzə qalır ki, bu da stressin qaçılmaz olmasına səbəb olur. Belə bir mühitdə liderin rolu təkcə əmrlər vermək deyil, eyni zamanda şəxsi heyətin psixoloji vəziyyətini düzgün idarə etmək və stressin mənfi təsirlərini minimuma endirməkdən ibarətdir.

Hərbi idarəetmə sistemi yüksək risk, qeyri-müəyyənlik və vaxt məhdudiyyəti şəraitində fəaliyyət göstərir. Xüsusilə döyüş hazırlığı, real əməliyyatlar, fövqəladə hallar və taktiki qərarların qəbulu zamanı liderlərin psixoloji davamlılığı və stressi idarəetmə bacarığı həlledici rol oynayır. Bu baxımdan, ordu üçün liderlərin stresə davamlılığı yalnız fərdi keyfiyyət deyil, eyni zamanda döyüş qabiliyyətinə və əməliyyatların effektivliyinə birbaşa təsir edən amildir.

Son illərdə regional təhlükəsizlik mühiti, texnoloji müharibə elementlərinin artması, infor-masiya və psixoloji təsir vasitələrinin genişlənməsi hərbi liderlərdən daha çevik, rasional və sürətli qərar qəbuletmə bacarığı tələb edir. Stress şəraitində düzgün qərar verə bilməmək isə əməliyyatların uğursuzluğu, canlı qüvvə və texnika itkiləri ilə nəticələnə bilər. Buna görə də liderin stressi idarə etmə bacarığının qərar qəbuletmə prosesinə təsirinin elmi əsaslarla öyrənilməsi aktual elmi-praktik əhəmiyyət daşıyır.

Hərbi kontekstdə, xüsusən Azərbaycan Ordusunun spesifik struktur və əməliyyat xüsusiyyətləri nəzərə alınmaqla, kompleks şəkildə tədqiq olunmamışdır. Mövcud tədqiqatlarda liderlik və stress anlayışları ayrı-ayrılıqda öyrənilsə də, onların qarşılıqlı təsiri və qərar qəbuletmə mexanizmlərinə birgə təsiri kifayət qədər sistemli şəkildə işlənməmişdir.

Stress anlayışı isə psixoloji və fizioloji reaksiyalar toplusu kimi qiymətləndirilir və orduda bu anlayışın nəzəri əsaslarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Davamlı stress diqqətin azalmasına, səhv qərarlara və peşəkar fəaliyyətin zəifləməsinə səbəb ola bilər. Buna görə də liderlik və stress anlayışlarının qarşılıqlı əlaqədə nəzərdən keçirilməsi ordunun döyüş qabiliyyətinin və ümumi fəaliyyət səmərəliliyinin artırılması baxımından olduqca vacibdir. Bu məqalədə orduda liderlik və stress anlayışının nəzəri əsasları elmi yanaşmalar əsasında təhlil olunacaqdır.

**Liderlik anlayışının mahiyyəti və əsas nəzəri yanaşmalar.** Müasir dünyada insanlara hörmət, tolerantlıq, məsuliyyət anlayışı, dəyişikliklərə və yeni fikirlərə açıqolma baxımından lider şəxsin rolu əvəzsizdir. Xüsusən XX əsrin 50-ci illərindən başlayaraq, liderlik probleminə olan marağın artması bu sahədə bir çox tədqiqat işlərinin aparılmasına güclü təkan vermişdir. Bu tendensiyanın müasir dövrdə davam etdirilməsi təsadüfi deyil. Zaman keçdikcə dünyada baş verən qlobal və sürətli dəyişikliklər nəticəsində cəmiyyətdə sosial və mənəvi inkişafın yeni yollarının axtarılmasında fərqli düşüncəyə, qabiliyyət və davranış keyfiyyətlərinə malik şəxslərə olan tələbat xeyli artdı. Belə bir şəraitdə insanların (işçilərin) bacarıqla idarə olunması və təşkilatların uğurlu fəaliyyəti üçün rəhbərin sadəcə rəsmi səlahiy-yətlərinə arxalanması, həmçinin idarəetmənin əsas vəzifələrindən olan planlaşdırma, təşkilat-landırma və nəzarət işi yetərli deyil. İnsanları motivasiya etmək (ruhlandırmaq), həvəslən-dirmək, vahid məqsədlər ətrafında inandıraraq birləşdirmək üçün idarəemənin yeni, daha effektiv üsul və formalarının tətbiqinə zərurət yaranır. İlkin olaraq, işçilərdə motivasiya yaratmaq üçün maddi stimullaşdırma metoduna üstünlük verildi və bununla da, bir müddət müəssisənin məhsuldarlığının yüksəldilməsinə nail olunsa da belə bir vəziyyət nəticə etibarilə uzun sürmədi [2].

Liderlik haqqında ilk elmi araşdırmalar XIX əsrdən başlanmasına baxmayaraq, "lider" sözünün qədim kökü vardır. Belə ki, "lider" qədim qərbi alman tayfalarının "laithjan" sözündən meydana gəlmişdir. Bu söz tədricən ingilis dilində "to lead" – "aparmaq" feilinə, XIII əsrdə isə "a leader" –"aparıcı" isminə çevrilmişdir. Uzun müddət lider (a leader)

sözü sərkərdələri (military leader), qoşun başçılarını (troop leader), dəniz komandanlarını (flotilla leader) tərif etmək üçün istifadə edilmişdir. Sonralar İngiltərə dəniz dövləti olduğundan gəmiləri (donanmanı) müəyyən istiqamətə səmtləşdirən insanlara və ya gəmiyə "lider" deyilməyə başlandı [2].

Liderlik cəmiyyətin inkişafı ilə birlikdə dəyişən, qaçılmaz, hərtərəfli və çoxşaxəli bir anlayışdır. O, hər yerdə mövcuddur – kiçik və böyük təşkilatlarda, iş dünyasında və dini icmalarda, həmkarlar ittifaqlarında, xeyriyyə cəmiyyətlərində, şirkətlərdə və universitetlərdə, silahlı dəstələrdə, qeyri-formal təşkilatlarda, küçə dəstələrində və kütləvi nümayişlərdə də özünü büruzə verir. Belə ki, iki nəfərdən artıq insanın olduğu qrupda biri liderlik edir, digəri isə ona tabe olur. İnsanlar hər zaman liderin ətrafında toplanmış və onun yönləndirdiyi istiqamətdə irəliləyərək ya müvəffəqiyyət qazanmış, ya da uğursuzluğa düçar olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin məhz xarizmatik liderliyi sayəsində Qarabağ cəbhəsində məğlubiyyətlər seriyasına son qoyulmuşdur. Ulu Öndər Heydər Əliyev məğlubiyyətlərdən sonra Orduda sarsılmış mənəvi-psixoloji vəziyyəti yaxşılaşdırmaq üçün təhlükələrə baxmayaraq, mütəmadi olaraq ən qaynar cəbhə bölgələrinə gedir, səngərlərdə hərbi qulluqçularla görüşərək tapşı-rıq və tövsiyələr verirdi. Bundan başqa, Ümummilli Lider onların problemləri ilə maraqlanır, qayğı göstərir və döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırırdı. Ulu Öndərin əsl siyası liderə xas fədakar və cəsur fəaliyyəti orduda ruh yüksəkliyi və rəhbərə inam yaradaraq öz nəticələrini verdi. Belə ki, Füzuli rayonunun Böyük Bəhmənli kəndi, bir gün sonra Horadiz qəsəbəsi, Füzulinin daha bir neçə kəndi, Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndi geri alındı, sonra Ağdam-Tərtər istiqa-mətində aparılan uğurlu döyüşlərdə bir sıra strateji yüksəkliklər və yaşayış məntəqələri azad edildi [3].

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev liderə xas olan möhkəm iradə, qərar qəbul etmək səriştəsi, insanlara doğru yol göstərmək bacarığı, qətiyyəti, prinsipial mövqeyi, kommunikativ bacarıqları sayəsində 44 günlük Vətən müharibəsində mənsubiyyətindən, dinindən və irqindən asılı olmayaraq, bütün xalqı vahid amal ətrafında birləşdirdi. Məhz onun siyasi və hərbi lider kimi fəaliyyəti Vətən müharibəsinin Zəfərlə başa çatmasının əsas səbəblərindən birinə çevrildi.

## İstifadə olunan metodlar

**Analitik** və **müqayisəli elmi tədqiqat metodları** birgə istifadə edildikdə liderlik davranış-ları və stress prosesləri daha sistemli və elmi əsaslarla izah olunur. Hər iki metod nəzəri anlayışların dərin təhlilinə və müxtəlif yanaşmaların qarşılaşdırılmasına imkan verir. Analitik metod mövzunun tərkib hissələrə bölünərək öyrənilməsini nəzərdə tutur. Bu yanaşmada liderlik və stress anlayışları ayrı-ayrılıqda təhlil edilir və onların strukturu müəyyənləş-dirilir.

**Liderlik anlayışının analizi.** Analitik yanaşma ilə liderlik aşağıdakı komponentlərə bölünür:

- Liderlik davranışı (qərarvermə, istiqamətləndirmə)
- Liderlik üslubu (avtoritar, demokratik, transformasiyaedici və s.)
- Rəhbərlik bacarıqları (kommunikasiya, motivasiya, təşkilatçılıq)

Bu təhlil göstərir ki, liderlik yalnız idarəetmə funksiyası deyil, həm də insan davranışlarına təsir edən kompleks sosial prosesdir.

**Stress anlayışının analizi.** Stress anlayışı da analitik şəkildə fizioloji stress reaksiyaları, psixoloji stress faktorları, iş mühitində yaranan stress, xroniki və kəskin stress növlərini öyrənir.

**Liderlik və stress arasındakı qarşılıqlı əlaqənin analitik təhlili.** Analitik metod əsasında aparılan elmi araşdırmalar sübut edir ki, hərbi liderlik və stress arasında qarşılıqlı və dinamik əlaqə mövcuddur. Komandirin rəhbərlik üslubu şəxsi heyətin psixoloji dayanıqlığına birbaşa təsir göstərir.

**Avtoritar liderlik və stress.** Hərbi sistemdə avtoritar liderlik müəyyən hallarda intizamın qorunması baxımından effektiv hesab olunsa da, həddindən artıq sərt idarəetmə şəxsi heyətdə emosional gərginliyi

artıra bilər. Davamlı təzyiq və kommunikasiya çatışmazlığı stress səviyyəsinin yüksəlməsinə səbəb olur.

**Demokratik liderlik və psixoloji sabitlik.** Analitik yanaşma göstərir ki, şəxsi heyətlə qarşılıqlı etimada əsaslanan liderlik modeli kol-lektiv daxilində psixoloji sabitliyi gücləndirir. Əsgərlərin fikir və təkliflərinə diqqət yetirilməsi onların motivasiyasını artırır və stresə davamlılığını gücləndirir.

**Transformasional liderlik və motivasiya.** Transformasional liderlik hərbi şəraitdə yüksək effektiv idarəetmə modeli kimi qiymət-ləndirilir. Bu liderlik növündə komandir şəxsi heyətin mənəvi hazırlığını gücləndirir, kollektiv ruhunu yüksəldir və təhlükəli situasiyalarda inam yaradır. Analitik təhlillər göstərir ki, motivasiya-edici liderlik döyüş stressinin mənfi təsirlərini müəyyən dərəcədə azalda bilir.

**Stressin liderin fəaliyyətinə təsiri.** Stress yalnız şəxsi heyətə deyil, komandirin idarəetmə fəaliyyətinə də təsir göstərir. Yüksək psixoloji gərginlik şəraitində:

- qərarvermə sürəti zəifləyə bilər;
- emosional balans pozula bilər;
- diqqət və analiz qabiliyyəti azala bilər;
- idarəetmə səhvlərinin ehtimalı yüksələ bilər.

Analitik metod göstərir ki, liderin emosional intellekti və psixoloji hazırlıq səviyyəsi artdıqca stress şəraitində idarəetmə səmərəliliyi yüksəlir.

**Hərbi kollektivdə stressin idarə olunmasında liderin rolu.** Hərbi lider stressin idarə olunması üçün aşağıdakı istiqamətlərdə fəaliyyət göstərməlidir:

- şəxsi heyətin psixoloji hazırlığının artırılması;
- kollektiv daxilində etimad mühitinin formalaşdırılması;
- motivasiya və mənəvi dəstəyin təmin edilməsi;
- effektiv kommunikasiya sisteminin qurulması;
- risk və böhran şəraitində operativ qərarvermə;
- psixoloji adaptasiya tədbirlərinin həyata keçirilməsi.

Bu tədbirlər şəxsi heyətin döyüş hazırlığını və mənəvi dayanıqlığını gücləndirir.

**Hərbi fəaliyyətin effektivliyinə təsiri.** Liderlik və stress arasındakı qarşılıqlı münasibət hərbi fəaliyyətin nəticələrinə birbaşa təsir göstərir. Effektiv liderlik: döyüş qabiliyyətini artırır; kollektiv birliyini möhkəmləndirir; psixoloji dayanıqlığı güclən-dirir; böhran vəziyyətlərində idarəetmə sabitliyini qoruyur. Əksinə, zəif liderlik və idarə olunmayan stress hərbi intizamın pozulmasına, motivasiya zəifliyinə və əməliyyat səmərəliliyinin azalmasına səbəb ola bilər [4].

**Döyüşün idarə olunmasında liderliyin və stressin əhəmiyyəti.** Döyüş şəraitində idarəetmə prosesinin effektiv həyata keçirilməsi liderlik keyfiyyətləri və stressin düzgün idarə olunmasından birbaşa asılıdır. Müasir hərbi əməliyyatlar yüksək risk, məhdud zaman və psixoloji gərginlik şəraitində aparıldığından, liderin operativ qərar qəbul etmə bacarığı döyüşün nəticəsinə mühüm təsir göstərir. Effektiv liderlik şəxsi heyətin motivasiyasının artırılmasına, intizamın qorunmasına və kollektiv fəaliyyətin koordinasiyasına şərait yaradır.

Stress isə döyüş zamanı hərbi qulluqçuların psixoloji və fizioloji vəziyyətinə təsir edən əsas amillərdən biridir. Yüksək stress səviyyəsi diqqətin zəifləməsinə, qərarqəbuletmədə səhvlərə və döyüş qabiliyyətinin azalmasına səbəb ola bilər. Buna görə də liderin əsas vəzifələrindən biri şəxsi heyətin psixoloji dayanıqlığını qorumaq, gərgin situasiyalarda sabit idarəetməni təmin etmək və stressin mənfi təsirlərini minimuma endirməkdir.

Bu baxımdan liderlik və stressin qarşılıqlı əlaqəsinin öyrənilməsi döyüşün idarə olunması prosesində əməliyyat effektivliyinin artırılması və şəxsi heyətin psixoloji hazırlığının gücləndiril-məsi üçün mühüm əhəmiyyət kəsb edir [5].

**Strateji planlaşdırma prosesində qərar qəbuletməyə liderin stress səviyyə-sinin təsiri.** Strateji planlaşdırma çərçivəsində qərar qəbuletmə prosesi liderin analitik

düşünmə qabiliyyəti, uzaqgörənliyi və psixoloji sabitliyi ilə sıx bağlıdır. Bu baxımdan liderin stress səviyyəsi qəbul edilən qərarların keyfiyyətinə və effektivliyinə birbaşa təsir göstərən əsas amillərdən biri kimi çıxış edir. Xüsusilə qeyri-müəyyənlik, risk və zaman təzyiqinin yüksək olduğu şəraitdə stress faktoru daha qabarıq şəkildə özünü göstərir.

Yüksək stress şəraitində liderin qərar qəbuletmə prosesi bir sıra mənfi təsirlərə məruz qala bilər. İlk növbədə, kognitiv (idrak) funksiyalar zəifləyir, diqqət və yaddaş imkanları məhdudlaşır. Nəticədə lider alternativ variantları kifayət qədər dərindən təhlil edə bilmir və tez-tez sadələş-dirilmiş yanaşmalara üstünlük verir. Bu isə strateji planlaşdırmada kompleks problemlərin qeyri-adekvat həllinə və risklərin düzgün qiymətləndirilməməsinə səbəb ola bilər [6].

Bununla yanaşı, stress emosional reaksiyaların güclənməsinə gətirib çıxarır. Lider daha aqressiv, tərəddüdlü və ya həddindən artıq ehtiyatlı qərarlar qəbul edə bilər. Belə hallarda qərarların obyektivliyi azalır, şəxsi hisslər və psixoloji gərginlik rasional təhlili üstələyir. Xüsusilə strateji səviyyədə bu cür qərarlar təşkilatın uzunmüddətli inkişafına mənfi təsir göstərə bilər.

Digər mühüm məqam isə liderin stressinin komanda üzvlərinin qərar qəbuletmə prosesinə dolayı təsiridir. Liderin gərginliyi kollektivə ötürülərək ümumi iş mühitində narahatlıq yaradır, açıq fikir mübadiləsini məhdudlaşdırır və alternativ ideyaların irəli sürülməsini zəiflədir. Halbuki strateji planlaşdırma prosesində kollektiv düşüncə və müxtəlif baxış bucaqlarının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, idarə olunan və optimal səviyyədə olan stress liderin daha çevik və diqqətli qərarlar qəbul etməsinə də şərait yarada bilər. Bu halda lider riskləri daha dərindən analiz edir, ehtiyat planları hazırlayır və dəyişən şəraitə operativ reaksiya verir. Lakin bu yalnız stressin nəzarət altında saxlanıldığı hallarda mümkündür [7].

Stressin düzgün idarə olunması liderə daha obyektiv, əsaslandırılmış və uzunmüddətli nəticələrə yönəlmiş qərarlar qəbul etməyə imkan verir. Bu səbəbdən liderlərin psixoloji hazırlığı və stressə davamlılığı strateji idarəetmənin vacib komponentlərindən biri kimi çıxış edir.

**Nəticə**

Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, liderlik və stress anlayışları idarəetmə fəaliyyətinin mühüm və qarşılıqlı əlaqəli elementlərindən biridir. Müasir şəraitdə effektiv liderlik bacarıqları stresli situasiya-larda düzgün qərar qəbul edilməsinə, kollektiv münasibətlərinin tənzimlənməsinə və ümumi fəaliyyət nəticələrinin yüksəldilməsinə mühüm təsir göstərir.

Tədqiqat zamanı stressin fərdi və kollektiv fəaliyyətə mənfi təsirləri təhlil edilmiş, onun idarə olunmasında liderin rolu xüsusi olaraq vurğulanmışdır. Müəyyən edilmişdir ki, düzgün liderlik üslubunun tətbiqi psixoloji gərginliyin azalmasına, motivasi-yanın yüksəlməsinə və təşkilati dayanıqlığın formalaşmasına şərait yaradır.

Analitik metod əsasında aparılan elmi təhlillər göstərir ki, liderlik və stress hərbi idarəetmə sistemində bir-biri ilə sıx əlaqədə olan mühüm amillərdir. Komandirin liderlik keyfiyyətləri şəxsi heyətin psixoloji vəziyyətinə və stresə davamlılığına birbaşa təsir göstərir. Eyni zamanda yüksək stress liderin idarəetmə bacarıqlarını zəiflədə bilər. Bu səbəbdən müasir hərbi idarəetmədə effektiv liderlik yalnız taktiki və peşəkar biliklərlə deyil, həm də psixoloji hazırlıq, emosional intellekt və stressin idarə olunması bacarıqları ilə qiymətləndirilir.

Müqayisəli elmi tədqiqat metodu əsasında aparılan təhlillər, liderlik və stressin hərbi fəaliy-yət sistemində bir-birini qarşılıqlı şəkildə təsirləndirən mühüm amillər olduğnu göstərir. Müxtəlif liderlik üslublarının müqayisəsi sübut edir ki, transformasional və demokratik liderlik modelləri şəxsi heyətin psixoloji dayanıqlığının qorunması və stressin azaldılması baxımından daha effektivdir. Avtoritar liderlik isə operativ idarəetmə baxımından üstünlük təşkil etsə də, uzun-müddətli dövrdə stress səviyyəsinin yüksəlmə-sinə səbəb ola bilər. Buna görə də müasir hərbi

idarəetmədə liderlik yalnız əmretmə funksiyası ilə deyil, həm də psixoloji dəstək, motivasiya və stressin idarə olunması bacarıqları ilə qiymətləndirilməlidir.

Nəticə etibarilə, hərbi mühitdə effektiv liderlik yalnız komandanın idarə olunmasını deyil, həm də stress faktorlarının düzgün qiymətləndirilməsi və idarə edilməsini tələb edir. Bu baxımdan, liderlərin psixoloji biliklərə malik olması, stressin təsirlərini dərk etməsi və komanda üzvlərinin emosional vəziyyətini nəzərə alması ümumi fəaliyyətin optimallaşdırılmasına şərait yaradır. Beləliklə, liderlik və stressin qarşılıqlı əlaqəsi hərbi mühitdə uğurlu fəaliyyətin təmin olunmasında əsas nəzəri və praktik amillərdən biri kimi çıxış edir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Tahirov R.K. İdarəetmə və liderlik. Dərs vəsaiti. Bakı: Hərbi nəşriyyat, 2025. 343 s.
2. Qasımov C., Şəfiyeva E., Əhmədov N. Hərbi psixologiya. Dərslik. Bakı, Vətən Nəşriyyatı, 2004, 264 s.
3. Məmmədov R.C. Liderlik nəzəriyyələri. Bakı: Elm və Təhsil jurnalı, 2018. 154 s.
4. Quliyev S.M. İdarəetmənin əsasları və liderlik. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 2016, 336 s.
5. Abbasov A.M. Psixologiya. Bakı: Təhsil Nəşriyyatı, 2015, 274 s.
6. Mustafayev N.Ə. Stress və onun idarə olunması. Bakı: Elm jurnalı, 2017. 340 s.
7. Yukl G. Leadership in organizations. Pearson. 2013, 511 p.

**Etibar GULIYEV**
reserve colonel, Institute of Military Management, Baku, Azerbaijan

**Oruj HUSEYNOV**
reserve lieutenant colonel, master's student of the Institute of Military Management, Baku, Azerbaijan

## THEORETICAL FOUNDATIONS OF THE CONCEPT OF LEADERSHIP AND STRESS

**Summary**

In the modern management environment, the concepts of leadership and stress are closely interconnected and play a significant role in ensuring the effective functioning of organizations. This article scientifically analyzes the essence of the concept of leadership, its main characteristics, and various leadership theories. The increasing complexity of management processes, global changes, and conditions of high psychological tension have made the scientific study of leadership and stress concepts increasingly relevant. Particularly within the military management environment, the ability of leaders to make appropriate decisions, manage personnel effectively, and maintain psychological stability directly depends on effective leadership skills. In this research, analytical and comparative scientific research methods were jointly employed to explain leadership behaviors and stress processes in a more systematic and scientifically grounded manner. Both methods provide opportunities for an in-depth analysis of theoretical concepts and for the comparison of different approaches. The theoretical significance of the conducted research is reflected in the systematic explanation of the scientific essence of leadership and stress concepts, as well as in the generalization of their interrelationship on the basis of modern management theories. Its practical significance lies in the presentation of applicable recommendations aimed at developing leadership skills, ensuring effective stress management, and fostering a healthy psychological environment within teams. As a result, effective leadership in a military environment requires not only the management of the command structure but also the proper assessment and management of stress factors. From this perspective, leaders' possession of psychological knowledge, their understanding of the effects of

stress, and their consideration of the emotional condition of team members contribute to the optimization of overall performance.

**Keywords:** military leadership, team management, stress.

**Этибар ГУЛИЕВ**
полковник резерва, Институт военного управления, Баку, Азербайджан

**Орудж ГУСЕЙНОВ**
подполковник резерва, магистрант Института военного управления, Баку, Азербайджан

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ КОНЦЕПЦИИ ЛИДЕРСТВА И СТРЕССА

### Резюме

В современной управленческой среде понятия лидерства и стресса тесно взаимосвязаны и имеют важное значение с точки зрения обеспечения эффективной деятельности организаций. В статье с научной точки зрения проанализированы сущность понятия лидерства, его основные характеристики и различные теории лидерства. Усложнение управленческих процессов, глобальные изменения и условия высокой психологической напряжённости актуализируют научное изучение понятий лидерства и стресса. Особенно в условиях военного управления принятие руководителями правильных решений, управление коллективом и сохранение психологической устойчивости напрямую зависят от эффективных лидерских навыков. В исследовательской работе совместно использованы аналитические и сравнительные методы научного исследования, что позволяет более системно и научно обоснованно объяснить лидерское поведение и процессы стресса. Оба метода предоставляют возможность для глубокого анализа теоретических понятий и сопоставления различных подходов. Теоретическая значимость проведённого исследования выражается в системном раскрытии научной сущности понятий лидерства и стресса, а также в обобщении их взаимосвязи на основе современных теорий управления. Практическая значимость заключается в представлении прикладных рекомендаций, направленных на развитие лидерских навыков, эффективное управление стрессом и формирование здоровой психологической среды в коллективе. В результате эффективное лидерство в военной среде требует не только управления командованием, но и правильной оценки и управления стрессовыми факторами. В этом контексте наличие у лидеров психологических знаний, понимание ими последствий стресса и учёт эмоционального состояния членов команды способствуют оптимизации общей деятельности.

**Ключевые слова:** военное лидерство, управление командой, стресс.

**Daxil olub:** 21.05.2026